**Şair ürəkli komandir**. - // Xalq qəzeti. - 2024. - 27 sentyabr. - **№ 211**. - S. 8.

**Səngərdə qısa istirahət saatlarında yazdığı şeirləri ilə döyüş dostlarını qələbəyə ruhlandıran baş leytenant Samir Təyyub oğlu Şükürov Lerik rayonunun Kəlvəz kəndində dünyaya gəlib. Həqiqi hərbi xidmətini başa vurduqdan sonra ali hərbi məktəbə daxil olub və 1 il təhsil alıb. Birinci Qarabağ müharibəsi başlananda döyüşlərə atılıb, ön cəbhədə şücaət və qəhrəmanlıqlar göstərib. Motoatıcı taqım komandiri vəzifəsində Hərbi vəzifələrini layiqincə yerinə yetirdiyinə görə leytenant, sonra da baş leytenant rütbələrinə layiq görülüb.**

1997-ci ildən ehtiyata buraxılan zabit Samir Şükürovun Vətən müharibəsi başlanan gün – 2020-ci il sentyabrın 27-də yuxusu ərşə çəkilir. Nəhayət, qisas zamanının gəlməsindən ruhlanaraq, Vətən müdafiəçilərinə xitabla “Əsgər” adlı belə bir şeir yazır:

**Yuxunu sən ərşə çəkmisən bütün,**
**Durmusan düşmənlə üz-üzə, əsgər!**
**Qələbə sevincin eşidək bu gün,**
**Zəfər xəbərini ver bizə, əsgər!**
**Daha geriyə də qalmayıb bir yol,**
**Bütün ümidimiz sənədir, əsgər!**
**İnləyən yurdların xilaskarı ol,**
**Səninlə zirvəyə ucalsın səngər!**
**Yeni müjdələrlə sevindir bizi,**
**Qoy görək səndəki hünəri, əzmi.**
**Tanrım zamin durub qorusun sizi,**
**Yağılar rədd olsun, daha yetməzmi?!**
**Az qalıb qələbə marşına, çox az,**
**Bizə bu anları sən yaşat, əsgər!**
**Dağlarda qış dönüb olsun güllü yaz,**
**Dərdi könlümüzdən sən boşalt, əsgər!**

Çox keçmədən Samir Şükürov qəti qərara gəlir ki, o da mütləq igid əsgərlərin yanında olmalıdır. Şair ürəkli keçmiş komandir elə bu niyyətlə də Lerik Rayon Hərbi Komissarlığına yollanaraq, istəyində təkid edir. Birtəhər qeydiyyatdan keçir və 44 yaşında ikən 44 günlük Zəfər Yürüşünə qatılır. Vətən müharibəsinin cəbhələrinə yollanır. Bir sıra yaşayış məntəqələrinin, strateji yüksəkliklərin alınmasında, düşmən postlarının ələ keçirilməsində fəal işirak edir. Noyabr ayının 9-da isə Şuşa şəhərinin azad olunması uğrunda gedən ağır döyüşlərdə şəhidlik zirvəsinə ucalır.

Qəhrəman komandirin nəşi noyabrın 10-da Bakı şəhərinə gətirilib və ailəsinin yaşadığı Xəzər rayonu Binə qəsəbəsindəki Şəhidlər Xiyabanında torpağa tapşırılıb. O, ölümündən sonra “Azərbaycan Bayrağı” ordeni, “Vətən uğrunda”, “İgidliyə görə” və “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib.